# Zərdab: səyyar qəbullar səmərə verir

❐ ***Vətəndaşların qəbulu, onların məktub, ərizə və şikayətləri ilə aparılan işin daha da təkmilləşdirilməsi icra hakimiyyəti orqanları qarşısında duran vacib və təxirəsalınmaz vəzifələrdən biridir. Azərbaycan Prezidenti İlham Əliyev bu sahədə ardıcıl və sistemli iş qurmağı, adamlara qayğı və həssaslıqla yanaşmağı, bu zəruri məsələni daim diqqət mərkəzində saxlamağı rəhbər işçilər qarşısında mühüm tələb kimi irəli sürmüşdür: Mən həmişə demişəm, biz xalq üçün yaşayırıq, xalq üçün çalışırıq, xalq qarşısında məsuliyyət daşıyırıq.***







Aparılan müşahidələr və əldə etdiyimiz faktların təhlili göstərir: adamlarla aparılan işin, onların ərizə və məktublarına baxılmasının müasir tələblər səviyyəsində qurulduğu yerlərdə iqtisadi, sosial və mədəni sahədə əldə edilmiş uğurlar daha çoxdur. Burada, ilk növbədə, insan amili, onun həyat tərzi, güngüzaranı, arzu və düşüncələri ön plana keçir.

Bəs bu sahədə Zərdab rayonunda vəziyyət necədir? İcra hakimiyyəti aparatında, onun yerli strukturlarında əldə edilmiş müsbət təcrübə nədən ibarətdir? İş üslubu və metodlarında, idarəetmə və təşkilatçılıq məsələlərində tətbiq edilən yeniliyin mahiyyəti nədir?

Bütün bu suallara daha aydın və konkret cavab tapmaq məqsədilə rayon icra hakimiyyətinin başçısı Lütvəli Babayevin Körpükənd kəndində keçirdiyi səyyar qəbulda biz də iştirak etməyi qərara aldıq.

Yeri gəlmişkən, qeyd edək ki, Körpükənd Zərdab rayonunun ən böyük yaşayış məntəqələrindən biridir: 1583 nəfər əhalisi, 3026 hektar torpaq sahəsi var. Son illər bu kəndin sosial-iqtisadi və mədəni inkişafı, meydana çıxan çətinlik və problemlərin aradan qaldırılması və s. istiqamətində bir sıra əsaslı tədbirlər işlənib həyata keçirilmiş, konkret addımlar atılmışdır. Nəticədə, abadlıq-quruculuq işləri xeyli genişləndirilmişdir. Onu da əlavə edək ki, istər Körpükənddə, istərsə də başqa yaşayış məntəqələrində gerçəkləşdirilən abadlıq-quruculuq işlərinin böyük bir hissəsi məhz yerlərdə əhali ilə keçirilən görüşlərdə səslənən təklif və müraciətlərin nəticəsi sayıla bilər.

Elə ona görə də Zərdab RİH başçısının artıq ənənəyə çevrilmiş budəfəki səyyar qəbulu da açıq fikir mübadiləsi, səmimi söhbət və işgüzar şəraitdə keçdi. Körpükənddə keçirilən səyyar qəbulda əlaqədar idarə, müəssisə və təşkilatların rəhbərləri də iştirak edirdilər. İcra hakimiyyətinin başçısı Lütvəli Babayev tədbiri açaraq qeyd etdi ki, xüsusi cədvəl əsasında təşkil olunan belə görüşlərdə əsas məqsəd vətəndaşların ərizə və şikayətinə baxılması mexanizminin daha da təkmilləşdirilməsindən, problemlərin həllini sürətləndirməkdən ibarətdir. Prezident İlham Əliyevin bütün məsələlərdə olduğu kimi, bu sahədə də yorulmaz və ardıcıl fəaliyyəti, bölgələrə tarixi səfərləri, sadə insanlarla keçirdiyi unudulmaz görüş və söhbətləri bizim üçün əsl örnək və təcrübə məktəbidir. Dövlət başçısının Zərdaba tarixi səfərlərini xatırlamaq kifayətdir. Son illər rayonun əsaslı inkişafı, iqtisadi, sosial və mədəni yüksəlişi, aparılan genişmiqyaslı tikinti-abadlıq və quruculuq tədbirləri respublika rəhbərinin digər bölgələr kimi Zərdaba da göstərdiyi gündəlik diqqət və qayğının real nəticələridir.

Körpükənddə artıq neçənci dəfədir ki, belə səyyar qəbullar keçirilir. Təklif, arzu və qeydlər ümumi işimizə çox kömək edir. Bunu kəndlərdə görülmüş işlər, vacib sosial məsələlərin həlli istiqamətində atılmış konkret addımlar da sübut edir. İndi yenə sizin qarşınızdayıq. Təklif, arzu və qeydlərinizi dinləyirik.

Sonra sakinlər növbə ilə ürək sözlərini ifadə etdilər:

**Səyavuş Muradov:** – Son illər istər bütövlükdə rayonumuz, istərsə də bizim kəndimiz sürətlə inkişaf etmiş, əsaslı tikinti-abadlıq işləri aparılmışdır. İqtisadi sahədə də inkişaf sürəti yüksəkdir. Belə ki, təkcə bu il fermerlərimiz 2562 ton taxıl, 1888 kiloqram barama, 52 ton çəltik, 16,5 ton qarğıdalı, 190 ton kartof, 121 ton tərəvəz və s. əldə etmişlər. Bu isə əvvəlki illərlə müqayisədə xeyli çoxdur. Deməli, gəlirlərimiz də qat-qat artıqdır. Bu isə xoş güzəran, firavan həyat deməkdir.

Kəndimizdə tikinti-quruculuq və abadlıq tədbirləri də sürətlə davam etdirilir. Modul tipli sutəmizləyici qurğunun istifadəyə verilməsi hamımızın ürəyincə oldu. Sudan İstifadəedənlər Birliyi üçün yeni bina tikildi. Hazırda kəndin ərazisində yeni elektrik dirəklərinin və xətlərinin çəkilişi aparılır. Yeri gəlmişkən, kənd sakinlərinin bir arzusunu da rayon rəhbərinə çatdırmaq istəyirəm. Bu da magistral asfalt yoldan kəndimizə qədər olan yolun çox narahat olmasıdır. Düzdür, müxtəlif vaxtlarda sizin, kənd icra nümayəndəliyinin və bələdiyyənin köməyi ilə müəyyən təmir işləri aparılıb. Bununla belə, yolun əsaslı təmirinə ciddi ehtiyac var.

**Rüxsarə Eminova:** – Son illər Körpükənddə tam orta məktəbin binası əsaslı şəkildə təmir edilib. Xasa kəndində Heydər Əliyev Fondunun vəsaiti hesabına yeni ibtidai məktəb binası tikilib istifadəyə verilib. Bütün bunlar, əlbəttə, çox yaxşıdır və haqlı olaraq kənd sakinlərinin, xüsusilə müəllim və şagirdlərin böyük minnətdarlığına səbəb olub.

Ancaq bir arzumuz da var. Belə ki, hələ də kəndimizdə uşaq bağçası yoxdur. Bu isə haqlı narazılıqlara səbəb olur. Nəzərə alsaq ki, kənd təsərrüfatına diqqət daha da artmış, əkin sahələri genişləndirilmişdir. Valideynlərin rahat və arxayın öz işləri ilə məşğul olmaları üçün dediyimiz məsələnin həlli olduqca vacibdir.

**Gülər Umudova:** – Bizim evdə 2 şəhid ailəsi yaşayır. 7 nəfər cəmi ikiotaqlı mənzilə sığınıb. Demək istəyirəm ki, mənzil-məişət şəraitimiz çox ağırdır. Ölkə Prezidentinin bu qəbildən olan ailələrə diqqət və qayğısı hamımıza yaxşı məlumdur. Hər il belə ailələr üçün yeni evlər tikilib istifadəyə verilir. Bizim ailənin də belə rahatlığa ciddi ehtiyacı var.

**Vaqif Muradov:** – Bu il 3 hektar pay torpağında bol pambıq yetişdirmişik. Bugünə kimi 10 ton məhsul təhvil verilmişdir. Məhsul yığımı davam edir. Bununla əlaqədar təkliflərimiz də var: Qərara almışıq ki, gələn il əkin sahələrini bir neçə dəfə artıraq. Ona görə ki, bizim adamlarda bu sahəyə böyük həvəs və maraq var. İstəyirik ki, kənd bələdiyyəsi bu işdə bizə kömək etsin, münasib yerdə əlavə torpaq sahəsi ayrılsın. Əgər belə olarsa hər hektarın məhsuldarlığını, ən azı, 35 sentnerə çatdıracağıq.

**Səfər Cəfərov:** – Qızım illərdir ki, ağır xəstəliyə düçar olub. Hər ay dava-dərmana xeyli vəsait lazım gəlir. Artıq imkanımız tükənib. Bakıya, Səhiyyə Nazirliyinə getməyə də pulumuz yoxdur. Konkret yardıma böyük ehtiyacımız var.

**Məsud Qarayev:** – Torpaqlarımız şorandır. Elə ona görə də məhsuldarlıq o qədər də yüksək deyil. Başqa sözlə desək, meliorasiya tədbirlərinə ciddi ehtiyac var. Kömək olsa pambıqçılıqda da, taxılçılıqda da, digər sahələrdə də məhsul istehsalını 2-3 dəfə artırmaq mümkündür.

**Kərim Bəkirov:** – 21 ildir ki, əkib-becərdiyim pay torpağım zəbt olunub. Mənə kömək edin, əkinimi özümə qaytarmaqda kömək edin.

...Təklif, müzakirə, arzu və qeydlər bir-birini əvəz edir. Əlbəttə, hər görüş rayon rəhbərliyi ilə əhali arasında ünsiyyət yaradır, bu və ya digər məsələnin həllini sürətləndirir, qarşılıqlı inamı gücləndirir.

Əsas cəhət odur ki, səyyar qəbulda qaldırılan məsələnin, səslənən arzu və təkliflərin böyük əksəriyyəti elə yerindəcə həllini tapdı. Sözsüz ki, qarşıya çıxan bütün problemləri həmişə daxili imkanlar hesabına aradan qaldırmaq olmur. Bu zaman həlli respublikanın mərkəzi icra orqanarının səlahiyyətləri daxilində olan məsələlər barədə müvafiq hazırlıq, komitə və şirkət rəhbəri qarşısında məsələ qaldırılır.






İnsan amilinin ön plana çəkilməsi, onların vacib sosial məsələlərinə, məktub, ərizə və təkliflərinə operativ münasibət, müntəzəm və sistemli xarakter alan belə görüşlər, səyyar qəbullar isə nəticə etibarilə iqtisadi-sosial və mədəni sahədə böyük uğurlara gətirib çıxarır. Bunu aşağıdakı fakt, rəqəm və göstəricilər də sübut edir.

Zərdab, əsasən, kənd təsərrüfatı rayonudur. Son 10 ilin iqtisadi göstəriciləri bir daha göstərir ki, bütün sahələrdə dinamik inkişaf təmin edilmiş, məhsuldarlıq dəfələrlə yüksəlmişdir. Məsələn, ipəkçiliyin inkişaf etdirilməsi ilə bağlı Prezident İlham Əliyevin Qax rayonunda keçirilən müşavirədə qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində rayonda konkret tədbirlər həyata keçirilmişdir. Bölgü üzrə 480 qutu barama toxumu kümçülərə paylanılmış, 27 tondan çox barama istehsal olunaraq "Şəki-İpək" ASC-yə təhvil verilmişdir. Rayon üzrə proqnoz tapşırığa 112,7 faiz əməl edilmişdir. Bu, respublikada ən yüksək göstəricidir. Barama qurdunun bəslənməsində 611 nəfər rayon sakini çalışmış, təhvil verilmiş ipək xammalına görə kümçülər 250 min manata yaxın vəsait almışlar.

Baramaqurdunun yem bazasının möhkəmləndirilməsi üçün rayon ərazisində 260 mindən çox tut tingi əkilmişdir.

2017-ci ilin məhsulu üçün 19753,5 hektar sahədə payızlıq taxıl əkilmiş, 58 min tondan çox taxıl istehsal olunmuşdur. Bu da keçənilki göstəricilərdən 6 min ton çox olmaqla, rayon tarixində ən yüksək göstəricidir. Rayonda adambaşına 1017 kiloqram taxıl düşür. Ümumiyyətlə, bu mövsümdə 3815 ton kartof, 2778 ton tərəvəz, 6239 ton bostan, 1494,2 ton qarğıdalı yığılmış, 350 ton çuğundur istehsal olunmuşdur. Çəltikçiliyin inkişafı sahəsində aparılan işlərin nəticəsidir ki, rayonda 202,0 hektar sahədə çəltik əkilmişdir. İndiyə kimi 690,7 ton düyü istehsal olunmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə çəltik sahəsi 131,5 hektar, kartof əkini 5,4 hektar tərəvəz sahəsi 19,6 hektar artmışdır.

Ölkə Prezidenti İlham Əliyevin 17 sentyabr 2016-cı il tarixdə Sabirabad, 28 mart 2017-ci ildə Saatlı rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirələrində verdiyi tövsiyə və tapşırıqlara uyğun olaraq 2017-ci il üçün nəzərdə tutulmuş 3 min hektar əvəzinə, 3232,3 hektarda pambıq əkilmişdir. Hazırda məhsul yığımı davam edir. Bu günədək 4 min tonadək pambıq yığılaraq emal müəssisələrinə təhvil verilmişdir. 2 min nəfərdən çox rayon sakini işlə təmin edilmişdir.

Rayonda qara malın sayı 54 min 628 başa, qoyun-keçilər 113 min 361 başa çatmışdır ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə çoxdur.

Göründüyü kimi, son vaxtlar Zərdab Rayon İcra Hakimiyyətində bütün sahələrdə olduğu kimi, vətəndaşların qəbulu, onların ərizə, şikayət və məktublarına baxılması sahəsində də ardıcıl və sistemli iş qurulmuş, ciddi icra intizamı yaradılmışdır. Əsas diqqət ona yönəldilmişdir ki, əhalini narahat edən vacib məsələlər, zəruri sosial ehtiyaclar yerindəcə həll olunsun, şikayətlərə, təkrar müraciətlərə yol verilməsin. Belə bir fakt xüsusi maraq doğurur ki, 2007-ci illə müqayisədə daxil olmuş ərizə və şikayətlərin sayı 10 dəfə azalmışdır.

Rayon icra hakimiyyəti başçısının yerlərdə keçirilən səyyar qəbulları du daim diqqət mərkəzində saxlanılır. Cari ilin ötən ayları ərzində 39 səyyar qəbul keçirilmiş, vətəndaşların qaldırdıqları 185 təklifdən 81-i öz həllini tapmış, 16 təklif aidiyyatı üzrə göndərilmiş, 67 təklifin müvafiq dövlət proqramları çərçivəsində, 10 təklifin isə ilin sonunadək təmin edilməsi nəzərdə tutulmuşdur.

Bəli, bu gün Zərdab öz inkişafının keyfiyyətlə yeni bir mərhələsinə qədəm qoymuşdur: istər iqtisadi, istər sosial-mədəni, istərsə də təşkilat-idarəetmə məsələləri baxımından yenilənmə davamlıdır. Belə kompleks münasibət, inkişafa elmi və yaradıcı yanaşma isə gələcəkdə daha böyük uğurlardan xəbər verir.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***